


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

2 noyabr 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 42 (3656)


# Azərbaycanın enerji qüdrəti

## Yaxın illərdə ölkəmiz "yaşıl enerji" ixrac edəcək

**Azərbaycanın yaratdığı beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platformaları getdikcə daha da möhkəmlənir. Həm də yeni-yeni sahələri əhatə edir. Son illər bərpa olunan enerji sahəsinin inkişafı istiqamətində atılan addımlar buna əyani misaldır.**



### İnvestorlar üçün cəlbedici ölkə

Ölkəmizə xarici investisiya cəlb etməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş-elektrik stansiyasının – "Qaradağ" Günəş Elektrik Stansiyasının açılışı oldu. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən 230 MVt gücündə bu stansiyanın təməli ötən il Prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdu. Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Stansiyanın açılışı zamanı Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür: **"Hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir. Lakin, eyni zamanda, biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik. Azərbaycan beynəlxalq bazarlara neft, təbii qaz, neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi ixracatçısıdır".**

### Azərbaycanın "yaşıl enerji"si

Dövlət başçısının qeyd etdiyi kimi, ölkəmizin təbii sərvətləri bu gün beynəlxalq bazarlara ixrac olunur. Gələcək planlar isə göstərir ki, yaxın illərdə Azərbaycan "yaşıl enerji" də ixrac edəcək.

Ölkəmizin bərpa olunan enerjisi təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialı fəal şəkildə inkişaf etdirilir. Artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyaları istismara verilib, bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da yaşıl enerjiyə keçid prosesinə daha böyük töhfə olacaqdır.

Ümumiyyətlə, Azərbaycanın təbii sərvətlərinin istifadəsi üçün böyük potensial var. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub. Bu potensial imkan verir ki, Xəzər-Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarla fəal iş aparılsın. Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqillik tariximizdə bütün sahələrdə planların gerçəkləşməsi qarşıdakı hədəflərə nail olunacağını indidən bəlli edir.

# Türkiyəyə təbrik

## Prezident və Birinci vitse-prezident paylaşım edib

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin milli bayramı - Respublika Günü münasibətilə paylaşım edib. Dövlət başçısı Azərbaycan və Türkiyə bayraqlarının əks olunduğu foto paylaşıb.

Birinci vitse-prezident isə paylaşımında "Türkiyə xalqını Cümhuriyyət Bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm", - deyə qeyd edib.

# Prezident komandanı qəbul edib

## Uğurlu hərbi əməkdaşlıq

Prezident İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib.

Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirən dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirib.

Prezident beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd edib.

# Dinamik inkişaf yolumuz

## İqtisadi siyasət səmərəli nəticə verir

Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan iqtisadi uğurlar sayəsində ölkəmiz dinamik inkişaf yolunu tutub. Regionların sosial-iqtisadi inkişafına xüsusi diqqət ayıran dövlət başçısı fəaliyyəti dövründə iqtisadi böyüməni təmin edib.

Belə ki, 2003-cü ildə Azərbaycanda ümumidaxili məhsulun dəyəri 7,1 milyard manat olduğu halda 2022-ci ildə 133,7 milyard manat təşkil edib. Bu ilin gözləntilərinə görə isə 2003-cü illə müqayisədə 16,8 dəfə artım olacağı proqnozlaşdırılır.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev oktyabrın 31-də "Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.

- Prezident İlham Əliyev oktyabrın 30-da Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd avtomobil yolunun İran İslam Respublikası ilə bağlantısının və Araz çayı üzərində körpünün tikintisi işlərinin davam etdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

- Prezident İlham Əliyev oktyabrın 28-də "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

# Nazirlikdə Kollegiya iclası keçirilib

## Müzakirəyə çıxarılan məsələlər vətəndaş məmnunluğunun təminində mühüm rol oynayır



Oktyabrın 27-də Daxili İşlər Nazirliyində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinin, şəhər, rayon polis orqanlarında vətəndaşların müraciətlərinə baxılması və qəbulu işinin vəziyyətinə, eləcə də cari ilin 9 ayının yekunlarının müzakirəsinə həsr olunmuş onlayn formatda Kollegiya iclası keçirilib.

İclası giriş sözü ilə açan daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov hər üç məsələnin fundamental insan hüquqlarının müdafiəsində, vətəndaş məmnunluğunun təmin edilməsində, hər bir şəxsin qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

(Ardı 2-ci səhifədə)


Nazir vətəndaşları qəbul edib 3

Konfrans müzakirələrlə yadda qalıb 3

Vətənə medalla döndülər 4

Divardan asılmış "tale"... 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Xarici işlər naziri Prezidentlə görüşüb

Oktyabrın 31-də Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov rəsmi səfəri çərçivəsində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşüb. Görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyində duran məsələlər, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub. Bir çox sahələrdə əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyi vurğulanıb.

### Yeni Konvensiyaya qoşulduq

Oktyabrın 30-da Avropa Şurasının Strasburq şəhərində yerləşən mənzil qərargahında Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev ilə təşkilatın Baş katibi xanım Mariya Peyçinoviç Buriç arasında görüş keçirilib. Azərbaycan tərəfi Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyasını imzalayıb. Azərbaycanın bu konvensiyaya qoşulması çox vacib hadisə kimi dəyərləndirilib, uzun illərdir formalaşmış əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə inam ifadə edilib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

### Ermənistan müharibə cinayətləri törədib

Qırx dörd günlük müharibə dövründə Ermənistan silahlı qüvvələri tərəfindən əsir alınan azərbaycanlı hərbi qulluqçuların əsirlik dövründə qarşılaşdıqları işgəncə və təzyiqlər hesabat şəklində hazırlanaraq beynəlxalq qurumların diqqətinə çatdırılıb. İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib ki, həmin döyüşlər zamanı Ermənistan silahlı qüvvələri tərəfindən müxtəlif yollarla hədəf yayındırmağa çalışaraq mülki əhaliyə, o cümlədən jurnalistlərə, din xadimlərinə və hətta uşaqlara hərbi geyimlər və silahlar verilib.

### Böyük Qayıdış davam edir

Böyük Qayıdış çərçivəsində indiyədək 3188 nəfər doğma yurdlarına köçürülüb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin növbəti iclasında bununla bağlı bildirilib ki, Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, qarşıya qoyulan tədbirlərin icrası təmin edilir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən işləri daimi nəzarətdə saxlaması məcburi köçkünlərdə dərin razılıq və minnətdarlıq hissi doğurur.

### İki qurum birgə məlumat yaydı

Sumqayıt şəhərində baş vermiş silahlı insidentdə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib. Bu barədə Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun birgə məlumatında bildirilib ki, keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində əvvəllər məhkum edilmiş 1987-ci il təvəllüdlü Müşfiq Tağıyevin cinayəti törətməsinə əsaslı şübhələr müəyyən edilib. Keçirilmiş tədbirlərlə cinayətdə istifadə edilən "İJ-18" markalı tüfəng, patronlar, barıt, benzin və digər əşyalar saxlandıqları yerlərdən aşkar edilərək götürülüb.

### Orta aylıq pensiya artırılır

Gələn ildən Azərbaycanda orta aylıq pensiya 500 manata yaxın olacaq. Bu, Hesablama Palatasının "2024-cü ilin dövlət büdcəsi haqqında" qanun layihəsinə rəyində əksini tapıb. Qeyd edilib ki, cari ilin birinci yarısında orta aylıq pensiya məbləğinin 16,9% artma sahib olması, habelə ilin sonuna ölkə üzrə orta aylıq əməkhaqqının artım tempinin 10,7 faiz həddində proqnozlaşdırılması növbəti ilin əvvəlində orta aylıq pensiya məbləğinin 492,3 manat hədd ətrafında olacağını göstərir. Ünvanlı sosial yardımın məbləği də 270 manat olacaq. Bu, 2023-cü illə müqayisədə 9,8 faiz çoxdur.

### Məhdudiyyət aradan qaldırılıb

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin işğaldan azad olunmuş ərazilərə təşkil etdiyi müntəzəm avtobus reysləri ilə səfər üçün yaş məhdudiyyəti aradan qaldırılıb. Qurumdan bildirilib ki, oktyabrın 27-dən etibarən 18 yaşına çatmayan şəxslər üçün də www.yolumuzqarabaga.az portalı vasitəsilə onlayn qaydada bilet satışı başlayıb.

### Məhbuslar məzuniyyətə buraxılacaq

Məhkumların əvvəllər də cəzaçəkmə müəssisələrinin hüdudlarından kənara çıxma praktikası olub. Hazırda isə mövcud qanunun daha da geniş formada tətbiq edilməsinə başlanılıb. Belə ki, ümumi rejimli cəzaçəkmə müəssisələrində cəza çəkən və ilk dəfə az ağır, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunan, müsbət xarakterizə edilən, əməyə cəlb olunan və yaxşılaşdırılmış şəraitə keçirilmiş məhkumlar 7 günədək ailə üzvlərinin yaşadığı ünvana, yəni məzuniyyət dövründə CM-in hüdudlarından kənara qısamüddətli səfərə buraxıla bilər. Məzuniyyət səfərlərinə yalnız ölkə ərazisi hüdudlarında icazə verilir.

# Nazirlikdə Kollegiya iclası keçirilib

## Müzakirəyə çıxarılan məsələlər vətəndaş məmnunluğunun təminində mühüm rol oynayır

*(Əvvəli 1-ci səhifədə)*

Müzakirələrə başlamazdan əvvəl nazir V.Eyvazov Xankəndi şəhəri və ona yaxın ərazilərdə yerləşmiş Ermənistan ordusunun qalıqlarının basdırdığı minaların bu ilin sentyabr ayının 19-da partlaması nəticəsində daha 6 nəfərin, o cümlədən polis əməkdaşlarının həlak olması, həmin gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimiz tərəfindən həyata keçirilmiş lokal antiterror tədbirlərində iştirak edən Daxili İşlər Nazirliyinin şəxsi heyətindən 20 nəfərin şəhid olmasını və 24 nəfərin yaralanmasını, ümumilikdə isə Vətən müharibəsi də nəzərə alınmaqla Daxili Qoşunların və polisin 78 şəhid verdiyini və 370 nəfərin yaralandığını diqqətə çatdırıb və bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

### Xidməti vəzifələr layiqincə yerinə yetirilir

General-polkovnik Vilayət Eyvazov oktyabrın 15-də də ölkəmizin növbəti dəfə tarixi anların və hadisələrin şahidi olduğunu, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Xankəndidə, Xocavənddə, Xocalıda və terrorçulardan təmizlənmiş digər ərazilərdə Dövlət bayrağımızı ucaltdığını, habelə Daxili İşlər Nazirliyinin Xankəndi şəhər polis şöbəsinin yaradıldığını, Xocalı, Tərtər və Xankəndiyə müvəqqəti komendantların təyin edildiyini, işğaldan azad edilmiş həmin ərazilərdə təhlükəsizliyin və asayişin təmin edilməsi üçün bütün zəruri tədbirlər görüldüyünü, hər bir evin, hər bir binanın və infrastruktur obyektlərinin mühafizəyə götürüldüyünü, qanunsuz silahlı birləşmələrin atıb getdikləri mövqelərdən çoxsaylı silah-sursatın və hərbi texnikanın aşkarlandığını qeyd edib.

Bütövlükdə polisin və Daxili Qoşunların Qarabağın bütün ərazisində xidməti vəzifələri böyük məsuliyyətlə, peşəkarlıqla yerinə yetirdiyini, təhlükəsizliyi qoruduğunu, bu prosesin davamlı olacağını vurğulayıb.

### 9 ayın yekunları qənaətbəxşdir

Nazir daha sonra bildirib ki, daxili işlər orqanları və Daxili Qoşunlar qanunla müəyyən edilmiş vəzifələri cari ilin 9 ayında da layiqincə yerinə yetirib. Ümumi cinayətlərin açılması 86,8 faiz təşkil edib, Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 26.778 cinayətin 88,6 faizi açılıb.

Baş Prokurorluqla birgə görülmüş tədbirlərlə keçmiş illərdən bağlı qalmış 336, o cümlədən bir neçə xüsusilə ağır cinayətin açılması təmin edilib.

Qəsdən sağlamlığa ağır zərər vurmaların, xuliqanlıqların, quldurluqların, dələduzluqların, hədə-qorxu ilə tələb etmələrin, soyğunçuluqların və avtonəqliyyat vasitəsini qaçırmaların açılması yaxşılaşıb.

Odlu silahın tətbiqi ilə törədilən cinayətlər, oğurluqlar, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, avtonəqliyyat vasitəsinin qaçırılması faktlarının sayı azalıb.

Ağır və xüsusilə ağır cinayətlər törətmiş 466 nəfərdən ibarət 178 cinayətkar qrup zərərsizləşdirilib. Axtarılan təqsirləndirilən şəxslərin 83,3 faizi tutulub. Törədilmiş cinayətlər nəticəsində vətəndaşlara dəymiş maddi ziyanın 79, xırda talamalar nəticəsində vurulmuş ziyanın 93,1 faizi ödətdirilib.

### Narkotiklərlə mübarizə prioritetdir

Ölkədə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri də nəzarətdə saxlanılıb. Qanunsuz dövriyyədən ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 19 kiloqram çox – yəni 4 ton 18 kiloqram narkotik vasitə və 343 kiloqram psixotrop maddə



çıxarılıb, 244 nəfərdən ibarət 110 cinayətkar qrup zərərsizləşdirilib və bu cinayətlərə görə ümumilikdə 6.344 nəfər məhkəmə məsuliyyətinə verilib. Antinarkotik təbliğat sahəsində işlər də davamlı olmaqla təhsil müəssisələrində 1.028 maarifləndirmə tədbiri keçirilib.

Yol hərəkəti təhlükəsizliyinin təmini və təşkili, qəzaların qarşısının alınması, sürücü intizamının artırılması məqsədilə davam etdirilən tədbirlərlə respublika üzrə qeydə alınmış yol-nəqliyyat hadisələrinin sayı 55 fakt, qəzalar nəticəsində xəsarət alanların sayı 65 nəfər azalıb. Müəyyən edilmiş yol hərəkəti qayda pozuntularının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,7 milyondan çox artaraq 5,1 milyona çatıb və onların 64 faizi xüsusi texniki vasitələrlə aşkarlanıb.

Vətəndaşların müraciətlərinə baxılması, qəbulların keçirilməsi, şikayətlərə çevik reaksiya verilməsi sahəsində görülən işlər ötən 9 ayda da gündəlik nəzarətdə qalmaqla daxil olmuş 75.146 müraciətə baxılıb, habelə bu mühüm işə paralel olaraq kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 9 şəhər və rayonunda 3.000-ə yaxın vətəndaşın qəbulu həyata keçirilib. Qaldırılan problemlərin həlli təmin edilib, təşəbbüskarlardan 2.500-dən çox minnətdarlıq məktubları alınıb.

Gündəlikdəki məsələlər üzrə Nazirliyin aidiyyəti baş idarələrinin və bir sıra ərazi orqanlarının rəisləri görülmüş işlər, əldə edilmiş nəticələr, fəaliyyətin daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər barədə məruzə ediblər.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 9 ayında cinayətkarlığa qarşı mübarizədə, asayişin və təhlükəsizliyin təmini sahəsində qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini vurğulayıb.

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən Nazir bu istiqamətdə fəaliyyətin daha böyük əzm və qətiyyətlə həyata keçirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmçinin yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsə, o cümlədən bloggerlərə və digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına təşəkkürlərini bildirib.

Paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlərin üzərində də dayanan Nazir yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının və digər qanunazidd halların aradan qaldırılmasının, ümumən bu sahədə tədbirlərin gücləndirilməsinin zəruriliyinə toxunub, hərəkətin təhlükəsizliyinin təmini ilə əlaqədar qarşıda duran vəzifələri müəyyən edib və aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

Vətəndaş məmnunluğunun təmin edilməsində, dövlətə inam və etimadın güclənməsində böyük əhəmiyyət kəsb edən müraciətlərə baxılması işinə xüsusi diqqət çəkən nazir V.Eyvazov şikayətlərə çevik reaksiya verilməsi işinin yeni keyfiyyət səviyyəsinə yüksəldilməsi üçün əlavə tapşırıqlar verib.

### Nöqsanların aradan qaldırılması tələb olunub

Nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan müəyyən nöqsan və çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının bundan sonra da etibarlı qorunmasını, bütövlükdə vətəndaş məmnunluğunun davamlı surətdə təmin olunmasını, şəxsi heyətin etik davranış qaydalarına daim riayət etməsini, qanunçuluğun möhkəmləndirilməsini və peşəkarlıq səviyyəsinin günbəgün artırılmasını tələb edib.

Kollegiya iştirakçılarının diqqətini ötən illər ərzində beynəlxalq təşkilatların nümayəndə heyətləri ilə baş tutmuş görüşlərə də yönəldən nazir V.Eyvazov ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirləri xüsusi vurğulayaraq qeyd edib ki, bu sahədə fəaliyyətin effektivliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi üzrə aparılan müzakirələr və görülmüş işlər çox faydalı olub.

### Qarşıya beynəlxalq təcrübənin öyrənilməsi məqsədi qoyulub

Konkret olaraq, fəaliyyətin müasir tələblərə və mütərəqqi beynəlxalq təcrübəyə uyğun qurulmasında mühüm əhəmiyyət kəsb edən şəxsi heyətin professional hazırlığının artırılması məqsədilə son 5 ildə təkcə insan hüquqları üzrə Azərbaycanda və xarici dövlətlərdə keçirilən seminarlarda, təlim kurslarında, konfranslarda və digər tədbirlərdə daxili işlər orqanlarının 3000-dən çox əməkdaşının iştirak etdiyini, Polis Akademiyasında keçirilən məşğələlərə Avropa ekspertlərinin dəvət edildiyini, treninqlərin onlar tərəfindən də keçiriləcəyini bildirib, habelə, aidiyyəti tədris proqramlarının qısa müddətdə yenilənməsinə dair tapşırıqlar verib. "Açıq hökumətin təşviqinə və Korrupsiyaya qarşı mübarizəyə dair" Milli Fəaliyyət Planları əsasında idarədaxili nəzarət mexanizmlərinin, aidiyyəti vəzifə təlimatlarının təkmilləşdirildiyini, aidiyyəti qanunvericilik aktlarına beynəlxalq təcrübəyə uyğun dəyişikliklər edilməsi üçün layihələrin hazırlandığını, tutulmuş və həbs edilmiş şəxslərin beynəlxalq konvensiyalarda təsbit olunmuş bütün hüquqlarının və dindirmələrin şəffaflığının təmin edilməsi mövzularında respublikanın istintaq qurumlarının əməkdaşları üçün virtual təlimlərin təşkil edildiyini nəzərə çatdırıb. Nazirlik tərəfindən həyata keçirilən qətiyyətli tədbirlərin məntiqi nəticəsi kimi şəxsi heyət arasında neqativ halların minimuma endiyini, ötən 5 ildə xidməti intizam və etik davranış qaydalarını pozmuş 1.286 əməkdaş barəsində araşdırmalar aparılaraq 121 nəfərin xidmətdən xaric edildiyini, 139 nəfərin tutduğu vəzifədən azad olunduğunu, 1.026 nəfər haqqında başqa növ məsuliyyət tədbirləri görüldüyünü, cari ilin ötən dövründə isə polisə gətirilmiş şəxslərə qarşı kobudluğa yol vermiş 7 əməkdaşın xidmətdən xaric edildiyini, 16 əməkdaşın tutduğu vəzifədən azad olunduğunu, daha 21 əməkdaşa başqa növ intizam tənbehlərinin verildiyini qeyd edib.

### Qanundankənar davranış məsuliyyət doğurur

Nazir bütün ərazi polis orqanlarının rəislərindən insan hüquqlarının müdafiəsi sahəsində vəziyyətin, xüsusən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqlarının qorunması işinin gündəlik nəzarətdə saxlanılmasını tələb edib, onlara qarşı kobudluğun, hər hansı formada pis rəftarın yolverilməzliyini, qanundankənar davranışın ciddi məsuliyyət doğuracağını, normativ-hüquqi aktların tələblərinə dönmədən riayət olunmasının vacibliyini xatırladıb, bu istiqamətlərdə fəaliyyətin nəticələrinə görə hər bir rəhbər vəzifəlinin şəxsən məsuliyyət daşıdığını nəzərə çatdırıb.

Bütövlükdə Daxili İşlər Nazirliyinin beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini, qarşılıqlı əlaqələrin gələcəkdə də konstruktiv şəkildə həyata keçiriləcəyini ifadə edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətinin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.



# Nazir vətəndaşları qəbul edib

## Vətən müharibəsi iştirakçıları da xidmətə qəbul olunub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də və noyabrın 1-də Ağcabədi Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Ağcabədi şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Ağdam, Bərdə, Laçın, Zərdab və Ağcabədi şəhər və rayonlarından qəbula gələn 96 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov DİN Daxili Qoşunlarının Ağcabədidə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və kazarma-məişət şəraiti ilə maraqlanıb.

Sonra daxili işlər nazirinin rəhbərliyi ilə hərbi hissənin qərargahında komandir heyəti ilə əməliyyat müşavirəsi keçirilib. Nazir hərbi qulluqçulara konkret tapşırıq və tövsiyələrini verərək qanunvericiliklə müəyyən edilmiş vəzifə və tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcəklərinə əminliyini ifadə edib.



Sonda general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 42-si Vətən müharibəsi iştirakçısı, 3-ü isə şəhid ailələrinin üzvləri olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 202 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Konfrans müzakirələrlə yadda qalıb

## Təməli ulu öndər tərəfindən qoyulan Zəfər tarixi



**Oktyabrın 27-də DİN-in Polis Akademiyasında Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin və Polis Akademiyasının birgə təşkilatçılığı ilə ulu öndərin 100 illik yubileyi və “Zəfər Gününə” həsr olunmuş “Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Zəfər tarixi" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Konfransda Milli Məclisin, Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Ali Məhkəmənin, Konstitusiya Məhkəməsinin, Vəkillər Kollegiyasının, eləcə də bir sıra dövlət qurumlarının və ali təhsil müəssisələrinin nümayəndələri və kursantlar iştirak ediblər. Bir çox ölkədaxili qurumların 150-dən artıq əməkdaşı da onlayn formatda konfransa qatılıb.

Tədbir iştirakçıları Akademiyada ulu öndərin abidəsi önünə gül dəstələri qoyduqdan sonra konfrans zalında ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edib və Dövlət himni səsləndirilib.

İlk olaraq konfrans iştirakçılarını salamlayan DİN-in Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov “Zəfər tarixinin əldə olunmasında ümummilli lider Heydər Əliyevin əvəzolunmaz rolu” mövzusunda açılış nitqi ilə çıxış edib və konfransın işinə uğurlar arzulayıb.

Sonra Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Mübariz Əhmədov, Heydər Əliyev adına Hərbi İnstitutun rektoru, general-mayor Füzuli Salahov, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının rəisi, general-mayor Baba Salayev, Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Pərviz Ələkbərov və DİN-in Şəxsi Heyətlə İş İdarəsinin rəisi polis polkovniki Elçin Məmmədli çıxış ediblər.

Daha sonra konfrans iştirakçılarının, eyni zamanda, kursant və tələbələrin Azərbaycanın Zəfəri ilə yekunlaşan tarixi prosesdə Heydər Əliyevin uzaqgörən siyasətinin nəticələri mövzularında təqdimatları dinlənilib.

Konfransın mövzusu ətrafında müzakirələr aparılıb və suallar cavablandırılıb.

*“Polis”*

# Naxçıvanda taktiki təlim

## Məqsəd peşəkarlığın təkmilləşdirilməsidir

Bu günlərdə Naxçıvan MR-in Naxçıvan şəhərində Daxili İşlər Nazirliyinin, Daxili Qoşunların “N” saylı hərbi hissəsinin şəxsi heyəti, eləcə də digər dövlət qurumları əməkdaşlarının iştirakı ilə “Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin və qarşılıqlı fəaliyyətin təşkili, zədələnmə ocaqlarında axtarış-xilasetmə, qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılması” mövzusunda taktiki təlim keçirilib.

Təlimdə fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı müxtəlif qurumların praktiki fəaliyyətləri nümayiş etdirilərək onlar arasında qarşılıqlı əlaqənin düzgün qurulmasına xüsusi diqqət yetirilib.

"N" saylı hərbi hissənin təlimə cəlb olunan şəxsi heyəti təbii fəlakət rayonunda polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması, giriş-çıxışın məhdudlaşdırılması, səhra hospitalının və sahibsiz qalmış əmlakların mühafizəsi, bununla yanaşı, axtarma qrupu zərərçəkmiş vətəndaşların xidməti itlərlə axtarılması, ehtiyat qrupu talançılıqla məşğul olanların zərərsizləşdirilməsi, istehkam qrupu Mülki müdafiə alayının pirotexniki taqımı ilə qarşılıqlı şəkildə ərazilərin partlamamış sursatlardan təmizlənməsi tapşırıqlarını yerinə yetirib. Daxili işlər orqanlarının əməkdaşları təlim zamanı yüksək döyüş, mənəvi-psixoloji hazırlıq və çeviklik nümayiş etdirib.

*Teymur Əlizadə*
*polis mayoru*

# Gələcəyimiz naminə səfərbərik

## Uşaqların hüquqlarının müdafiəsi onların gələcəyinin təminatıdır

Ölkəmizdə uşaqların hüquqlarının müdafiəsi, onların inkişafı, hərtərəfli qayğı ilə əhatə olunması dövlət siyasətinin başlıca prinsiplərdir.

1992-ci ildə BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasına, 2002-ci ildə isə həmin Konvensiyanın iki əlavə protokoluna qoşulan respublikamızda 1998-ci il 19 may tarixində Konvensiyanın əsas prinsiplərini özündə əks etdirən “Uşaq hüquqları haqqında” Qanun qəbul edilib.

Qanundan irəli gələn tələblərə əsasən, bugün uşaq hüquqlarının təmini məqsədilə müxtəlif istiqamətlərdə davamlı olaraq zəruri tədbirlər həyata keçirilir.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın icrası ilə bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin(Ombudsmanın) təşəbbüsü ilə oktyabrın 20-dən noyabrın 20-dək respublikada "Uşaq Hüquqları Aylığı" elan olunub. Aylığın keçirilməsində məqsəd aidiyyəti qurumları cəlb etməklə uşaqlara diqqət və qayğının təşviq edilməsi, onlara qarşı pis rəftarın və zorakılığın qarşısının alınması, bu sahədə məlumatlılığın artırılması, uşaq hüquqlarının səmərəli müdafiəsi və təbliğinə nail olmaqdan ibarətdir.

Uşaq hüquqlarının qorunması istiqamətində aidiyyəti qurumlarla yanaşı daxili işlər orqanları əməkdaşlarının fəaliyyəti də nəzərəçarpandır.

Bu ilin müvafiq dövrü ərzində valideyn nəzarətindən, ictimai təsir vasitələrindən, habelə pedaqoji mühitdən kənarda qalan, eləcə də müxtəlif qanun pozuntularına görə polis orqanlarına, xüsusi qəbul, saxlama və təcridetmə mərkəzlərinə 4062, o cümlədən avaralıq və dilənçiliklə məşğul olan 248 azyaşlı gətirilmiş, hər biri barəsində qanunvericiliyə və normativ hüquqi aktlara uyğun tədbirlər görülmüşdür.

Valideyn himayəsindən məhrum olan və sosial təhlükəli vəziyyətlə üzləşən uşaqların dövlət qayğısı ilə əhatə olunması məsələlərinə xüsusi önəm verilmiş, bu qəbildən olan 114 azyaşlı aşkar edilərək onlardan 10-u körpələr evinə, 104 nəfər isə uşaq evi və sosial sığınacaqlara təhvil verilmişdir.

Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, əhali arasında maarifləndirmə və yönləndirici tədbirlərin təşkili sahəsində əməli işlər davam etdirilir.

*Aytəkin Nəcəfova*
*polis polkovnik-leytenantı*

# Divardan asılmış "tale"...

## Qanunsuz saxlanılan odlu silah cinayət predmetidir

**Görkəmli yazıçı Çexov deyirdi ki, əgər tamaşanın əvvəlində səhnədə tüfəng asılıbsa o, sonda mütləq atəş açmalıdır. Onun teatrla bağlı söylədiyi bu ifadə, əslində, real həyatdakı cinayət təhdidini çox dəqiq ifadə edir.**

Kriminoloji konteksdən yanaşanda yenə eyni mətləb hasil olur; əgər evdə silah varsa, bilərəkdən və ya bilməyərəkdən onunla cinayət törədilməsi riski yüksəkdir. Üstəlik, silah qanunsuz saxlanılırsa, deməli, bunda konkret cinayətkar niyyət gizlənir...







### Sabitliyin başı üzərindəki “Demokl qılıncı”

Dədə-babadan qalma divardan ov tüfəngi asma ənənəsi hazırda o qədər dəbdə olmasa da, hafizəmizə həkk olunmuş bu tablo bizə istər-istəməz yazıçının sözlərini xatırladır. Təcrübə də göstərir ki, həyat adlı “tamaşanın” sonunda o silahların səsi eşidilir, kimsə həyatından, kimsə uzun müddət azadlığından məhrum olur. Yəni, odlu silah bir az da divardan asılmış taleyə bənzəyir, gec-tez sahibinin boynuna günah və təqsir “yükləyir”.

Odlu silahların kriminogen duruma neqativ təsiri, obrazlı desək, sabitliyin başı üzərində “Demokl qılıncı” olduğu dünya ölkələrinin nümunəsində özünü daha aydın büruzə verir. Yəqin ki, bu mövzuda ilk ağıla gələn kütləvi silahlı hücumların tez-tez baş verdiyi ABŞ-dır. Ancaq, nisbətən rifah və təhlükəsizlik səviyyəsi yüksək hesab edilən İsveç kimi ölkədə belə problem ciddi fəsadlara yol açır. Bu ölkədə odlu silahla törədilən cinayətlərin artmasına görə sentyabr, hətta, “qara” ay adlandırılmışdı.

Statistika göstərir ki, bu məsələ ölkəmizdə narahatlıq doğuran problem səviyyəsində özünü büruzə vermir. Çünki Qarabağda antiterror tədbirlərindən sonra da azad edilmiş ərazilərdə silah-sursatların aşkar edilərək götürülməsi, minalardan təmizlənməsi prosesi o bölgədə və bütövlükdə ölkədə sabitliyin davamlı olaraq qorunmasını zəruri edən əsas şərt kimi diqqətdə saxlanılır.

### Könüllülük məsuliyyətdən azad edir

Qanunsuz saxlanılan silahların yaratdığı təhdidləri nəzərə alan daxili işlər orqanlarının rəhbərliyi tərəfindən əhali arasında qabaqlayıcı tədbirlərin keçirilməsinə daim nəzarət edilir. Eyni zamanda, əməliyyat-axtarış tədbirlərilə qanunsuz silah-sursatın aşkarlanması təmin olunur. Elə bu günlərdə Qobu, Saray, Məmmədli kəndlərinin sakinlərindən “TT” markalı tapançaların və “Kalaşnikov” markalı avtomatların, onlara məxsus patron və patron daraqlarının aşkar olunaraq götürülməsi örnək faktlardır. Davamlı olaraq bu istiqamətdə aparılan mübarizə ona gətirib çıxarıb ki, Nazirliyin son Kollegiya iclasında vurğulandığı kimi, odlu silahın tətbiqilə törədilən cinayətlərin sayı azalıb.

Şübhəsiz ki, silahların yığılmasında əsas şərtlərdən biri silahdan könüllü imtinadır. Belə olan halda, evində silah saxlayan, üzərində gəzdirən adama qanunvericiliyimiz imkan verir ki, birdəfəlik məsuliyyətdən azad olsun. Bunun üçün, sadəcə olaraq, silahı könüllü olaraq polisə təhvil vermək kifayət edir.

Vətəndaşlarda olan döyüş silahlarının könüllülük əsasında təhvil verilməsi üçün əhali arasında aparılan profilaktik tədbirlər konkret nəticələr verir.

Məsələn, bu günlərdə Xətai Rayon Polis İdarəsinin 37-ci Polis Şöbəsinə müraciət edən paytaxt sakinlərindən biri aşkar etdiyi silah-sursatı könüllü polisə təhvil vermək istədiyini bildirib. Polis vətəndaşın qeyd etdiyi ünvana gəlib və oradan 1 “Makarov” markalı tapança, 3 daraq, 108 müxtəlif çaplı patron, 2 əl qumbarası və 5 alışqan (zapal) aşkarlayıb. Məlumat verən vətəndaşa qarşı heç bir cəza təhdidi görülməyib. Əksinə, polisə vaxtında məlumat verdiyi üçün ona təşəkkür edilib.

Və yaxud şöbə əməkdaşlarının keçirdikləri profilaktiki tədbirlər nəticəsində İmişlinin Bəcirəvan kənd sakini Q.İsmayılov qanunsuz olaraq saxladığı “TOZ-18” markalı yivli silahı könüllü olaraq polis əməkdaşlarına təhvil verib.

Qanuna görə, vətəndaşlar istənilən polis qurumuna silahı təqdim edə və ya etibarlı yerə qoyaraq "102" - Xidməti zəng Mərkəzinə, yerli polis bölməsinə zəng edərək silahın yerini deyə bilər. Hər iki halda onu tutulmaq təhlükəsi gözləmir. Əlbəttə, əgər silah hər hansı cinayətdə istifadə edilməyibsə…

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Polis xəfiyyəsi – Ejen Fransua Vidokun memuarları - Sirli mənzil tapıldı

## Əməliyyat-axtarış işinin və kriminalistikanın əsasları

**Təhlil və araşdırmalara görə, Vidokun təcrübəyə əsaslanan qeydləri və tövsiyələri metodiki mahiyyət daşımaqla, əməliyyat-axtarış işinin, kriminalistikanın konstitusiyasıdır. Odur ki, əfsanəvi polis xəfiyyəsi Vidokun memuarlarının dərcini davam etdiririk.**

*(Əvvəli ötən sayımızda)*

- Siz bilirsiniz, düşünürəm ki, Parisdə nikah bağlamadan yaşayan xanım və kişi az deyil.

- Möhtərəm cənab, bu təklifi edərkən məni nə hesab edirsiniz? – deyə o, sözümü tamamlamağa imkan vermədən dedi.

- Mən sizə heç bir təklif etmirəm. Sizdən xahiş etmək istərdim ki, siz xeyirxahlıq edəsiniz və bu binada əri kimi təqdim etdiyi bir kişi ilə yaşayan xanım barədə məlumat verəsiniz.

- Mən belələrini tanımıram – deyə cavab verdi.

Onda mən Fossarı və məşuqəsi Tonnonu ətraflı təsvir etdim.

### Parisin ən tanınmış oğrusu yaxalanır

- İndi yadıma düşdü, bu cənab təxminən siz boydadı, onun yəqin ki, otuz yaşı var, gözəl kişidi, xanım cavandı, qara qaşları, gözəl dişləri, ağzı var, sakit xanımdır. Onlar doğrudan bu binada yaşayırdılar, amma bu yaxınlarda köçüblər.

Onların ünvanını verməyi xahiş etdim. Dedi ki, bilmir. Mən göz yaşları ilə xəyanətinə baxmayaraq dəlicəsinə sevdiyim bu xanımı tapmaqda kömək etmək üçün ona yalvardım. Dərzi göz yaşlarımdan mütəəssir oldu, özü ağlamağa başladı, buna görə onun bu həssaslığından tez yararlanmağa tələsdim.

- Onun xəyanəti məni öldürür. Allah xatirinə, bu bədbəxt kişiyə yazığınız gəlsin. Onların sığınacağını gizlətməyin.

Qozbel xanımlar çox mərhəmətli olurlar. Onların gözündə bütün ərlər, qədir-qiyməti verilməmiş kişidir. Onların düşüncəsinə görə, ərə xəyanət etmək yolverilməzdir. Bu xanım qadın xəyanətinə çox nifrətlə yanaşır və mənə səmimi şəkildə təsəlli verməyə başladı.

- Çox təəssüf ki, onlar vasitəçilərin köməyilə yeni mənzil tapıblar. Amma siz evin sahibini tapsaydınız məlumat ala bilərdiniz.




Gördüm ki, bu qadının səmimiyyətinə inanmamaq olmaz. Ev sahibinin yanına getdim. O, isə bildirdi ki, icarə müddətinin sonuna kimi pul verilib, artıq heç nə bilmir.

Beləliklə, Fossarın əvvəlki mənzilini tapmaqdan başqa heç nəyə nail ola bilmədim. Amma bu işdən əl çəkmədim və axtarışları davam etdirdim. Adətən kvartalların vasitəçiləri bir-birlərini tanıyırlar, Peti-karo küçəsindəki vasitəçilərdən xəyanətə məruz qalan ər kimi sorğu-sual etdim. Fossarın əşyalarını daşımağa kömək etmiş qardaşını nişan verdi. Bu adamla görüşdüm və öz hekayəmi danışdım, o, səbrlə dinlədi. Görünürdü ki, bu adam hiyləgər və tamahkardır. Bunu dərhal hiss etdim, ona sabah Fossarın yaşadığı mənzili göstərməsi müqabilində mükafat verəcəyimi söylədim. On frank vəd etdim. Bizim birinci görüşümüz 27 dekabrda, İsanın mövludu bayramının üçüncü günündə baş tutdu. Biz 28-i dekabrda növbəti dəfə görüşməyə razılaşdıq. Yanvarın 1-nə sürpriz hazırlamaq üçün tələsməliydik. Görüşə gecikmədim, izlənməyini tapşırdığım vasitəçi də zamanında gəldi. Əlavə pul verməli və səhər yeməyinə qonaq etməli oldum. Nəhayət o, evi göstərməyə razılıq verdi və biz Dyufo və Sent-Onore küçəsinin tinində yaxşı bir evə gəldik.

- Bax onlar bu evdə yaşayırlar. Gedək şərab satandan soruşaq görək, onlar köçməyiblər.

Onu yenidən şəraba qonaq etdim və sonra yola saldım. Ayrılanda o, artıq əmin idi ki, xəyanətkar həyat yoldaşımı tapmaqda kömək edib. Tamahkarlığından gedib Fossara xəbər vermədiyinə əmin olmaq üçün agentlərə onu izləmək tapşırığını verdim.

*(Ardı var)*

# Vətənə medalla döndülər

## Dünyanın ən güclüləri sırasında onların da adları var



DİN İdman Cəmiyyətinin yetirmələri Amin Quliyev və Hüseyn Məmmədli bu günlərdə Ər-Riyad şəhərində keçirilən Dünya Döyüş Oyunlarının mükafatçısı olublar. Belə ki, kikboksun “Wako” versiyası üzrə 2 qat dünya, 3 qat Avropa çempionu olan A.Quliyev qüvvəsini sınadığı 60 kiloqram çəki dərəcəsində İspaniya, Ukrayna və finalda türkiyəli idmançılar üzərində inamlı qələbə qazanaraq qızıl medala sahiblənib.

Digər təmsilçimiz H.Məmmədli isə karate üzrə 18-20 yaşlılar arasında çıxış etdiyi 67 kiloqram çəki dərəcəsində gümüş medala layiq görülüb və dünyanın ən güclü üçlüyü siyahısında adını rəsmiləşdirib.

Çempionluğa iddialı 8 favoritin iştirak etdiyi turnirdə yetirməmiz ilk olaraq sonuncu dünya çempionatının bürünc mükafatçısı, İspan karateçisi ilə qarşılaşıb. Rəqibini 1 xal üstələyən Hüseyn növbəti döyüşdə 2019-cü il dünya çempionatının qızıl mükafatçısı, misirli Lotfi Ahmedi tatamidən başıaşağı yola salıb. İdmançımız yarımfinalda yerli təmsilçi üzərində də 3:0 hesabı ilə inamlı qələbə qazanıb. Qızıl medal uğrunda mübarizədə isə qarşı tərəf sevinib.




Qeyd edək ki, Amin Quliyevi yarışa İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədov, H.Məmmədlini isə Fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov hazırlayıblar.

*T.Əlizadə*

# Kursantımız dünya çempionu olub

Azərbaycan idmançısı Emil Nağıyev İtaliyanın Karrada şəhərində kunq-funun "WTK"A versiyası üzrə keçirilən dünya çempionatında qızıl medal qazanıb.




80 kiloqram çəki dərəcəsində çıxış edən Azərbaycan təmsilçisi Polşa və Ukraynadan olan rəqiblərinə qalib gələrək finala yüksəlib. O, həlledici döyüşdə italiyalı idmançı ilə üz-üzə gəlib. Rəqibini məğlub edən E.Nağıyev dünya çempionu olub.

Qeyd edək ki, Emil Nağıyev Daxili İşlər Nazirliyinin Polis Akademiyasının 4-cü kurs kursantıdır, polis sıravisidir.

*R.Vəliyev*

# Dünyanı fəth edən əsər

## “Cinayət və cəza” haqqında 9 fakt

1. Dostoyevski bu romanı yazmaya da bilərdi, çünki ona edam hökmü verilmişdi.
2. Əsəri yazarkən yenə həbs edilmə təhlükəsi ilə qarşılaşır.
3. “Cinayət və cəza”nın ilk versiyası birinci şəxs adından yazılıb.
4. Cinayət alətinin balta olması təsadüfi deyil.
5. Baş qəhrəmanın adı da təsadüfi seçilməyib.
6. Raskolnikov yüngül cəzalandırılır.
7. Romanı hamı bəyənmir.
8. Roman əsasında 25-dən çox bədii film çəkilib.
9. Alfred Hiçkok da romanı ekranlaşdırmaq istəyənlərdən olub.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10390
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik